# "Ailə, qadın və uşaq məsələləri media müstəvisində: çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirilib

Noyabrın 4-də Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə "Ailə, qadın və uşaq məsələləri media müstəvisində: çağırışlar və perspektivlər" mövzusunda konfrans təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilib.

Panel sessiyaya BMT-nin CEDAW Komitəsinin üzvü Elgün Səfərov moderatorluq edib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışı zamanı bildirib ki, mətbuat cəmiyyətin aynasıdır və onun əsas vəzifəsi reallıqları dürüst şəkildə əks etdirmək, eyni zamanda gələcək inkişaf istiqamətlərinə işıq salmaqdır: "Bu güzgü həm aydın, həm də dürüst olmalıdır. O, cəmiyyəti olduğu kimi göstərməklə yanaşı, onun gələcəyini hansı istiqamətdə görmək istədiyini də əks etdirməlidir".

Komitə sədri vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün güclü və ədalətli bir dövlətə çevrilib və bu şəraitdə milli mətbuatın rolu daha da artıb. Milli Məclisin deputatı Hikmət Babaoğlu qeyd edib ki, ailə, qadın və uşaq məsələləri həm ictimai, həm də mənəvi baxımdan cəmiyyətin əsas dayaqlarıdır: "Azərbaycan cəmiyyətində ailə institutunun möhkəmləndirilməsi, qadınların sosial fəallığının artırılması və uşaqların sağlam mənəvi mühitdə böyüməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir".

O bildirib ki, medianın bu sahədə rolu əvəzsizdir və yeni media layihələri, maarifləndirici və təbliğat xarakterli materiallar vasitəsilə cəmiyyətdə ailə dəyərlərinin təbliği gücləndirilməlidir.

Sonra çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid tədbirin əhəmiyyətindən bəhs edərək mövzunun bugünkü aktuallığından söhbət açıb.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev diqqətə çatdırıb ki, ailə və uşaq mövzuları media üçün sosial məsuliyyət tələb edən sahələrdəndir. O vurğulayıb ki, jurnalistika fakültəsi olaraq gənc jurnalistlərin etik dəyərlər, obyektivlik və empatiya prinsipləri üzərində yetişdirilməsi əsas hədəflərdəndir.

Konfransda çıxış edən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Teleradio Akademiyasının rektoru Almaz Mahmud qeyd edib ki, müasir dövrdə sosial media jurnalistikasında dəqiqlik və məsuliyyət məsələləri ön plana çıxır: "Xüsusilə ailə və uşaq kimi həssas mövzularda etik standartlara əməl olunması son dərəcə vacibdir. Jurnalist hadisəni sensasiyaya çevirməməli, empatik və insanyönümlü yanaşma nümayiş etdirməlidir".

Konfrans çərçivəsində Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə jurnalistlər arasında keçirilən müsabiqənin qalibləri mükafatlandırılıblar. Mükafatlandırma mərasimində Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekan müavini, müsabiqə münsiflər heyətinin üzvü Sevinc Əliyeva çıxış edərək media təmsilçilərini təbrik edib və onların cəmiyyətin inkişafında rolunu yüksək qiymətləndirib.

Qeyd edək ki, qaliblər sırasında AZƏRTAC-ın da əməkdaşları var.

Tədbir çərçivəsində, həmçinin "1911-1912-ci illərdə nəşr olunan "İşıq" qəzetinin transliterasiya edilmiş toplusu"nun təqdimat mərasimi keçirilib. Təqdimatı "İşıq" jurnalının baş redaktor müavini, MİMTA Yayımlarının direktoru Əsəd Aslanoğlu, MİMTA Fondunun icraçı direktoru Pərviz Əmirov təqdim ediblər. "İşıq" qəzetinin təqdimatı çərçivəsində Azərbaycanda ilk qadın mətbuatının tarixi və müasir dövrdəki davamlılığı barədə məlumat verilib.

Tədbir Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın yekun nitqi ilə başa çatıb.

Panel iştirakçıları bir daha qeyd ediblər ki, ailə, qadın və uşaq məsələlərinin mediada düzgün, etik və məsuliyyətli şəkildə işıqlandırılması cəmiyyətin mənəvi dəyərlərinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan.- 2025.- 5 noyabr (№236).- S.3.